# Səhnə insanları sehirləyən məkandır

**Lənkəran Dövlət Dram Teatrı Azərbaycan mədəniyyətinin inkişafında, xalqımızın milli ruhunun yaşadılmasında xüsusi xidmətləri olan mədəniyyət ocaqlarındandır. Bu teatrın tarixi əslində XIX əsrin 90-cı illərinə təsadüf edir. Mənbələrdən məlumdur ki, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində artıq Lənkəranda teatr mühiti formalaşmışdı. 1934-1949-cu illərdə teatr fəaliyyət göstərsə də, sonralar qeyri-müəyyən səbəblərdən fəaliyyəti dayandırılmışdır. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun xeyir-duası ilə 1973-cü il dekabrın 6-da Lənkəran Dövlət Dram Teatrı öz fəaliyyətini yenidən bərpa etmişdi.**



Bu sənət ocağı repertuarında Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, Qərbi Avropa, rus və digər ölkə xalqlarının dramaturgiyasına da müraciət edərək yüzlərlə əsərə səhnə həyatı vermişdir. Lənkəran Dövlət Dram Teatrı təkcə respublikamızda deyil, həmçinin bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq festivallarda da uğurla çıxış etmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" 3 fevral 2023-cü il tarixli sərəncamı teatrın yaradıcı kollektivini yeni uğurlara səfərbər edib. Bu teatrın yaradıcı kollektivi zamanın nəbzini tutan səhnə əsərlərini yüksək səviyyədə tamaşaya qoymaqdan ötrü böyük əmək sərf edir. Teatrda normal yaradıcılıq mühiti formalaşıb. Hazırda teatrda 2 xalq artisti, 3 əməkdar artist, bir Prezidentin fərdi təqaüdçüsü və 3 Prezident mükafatçısı, həmçinin onlarca sənət fədaisi çalışır. Lənkəran Dövlət Dram Teatrının ədəbi-dram hissə rəhbəri Ağaddin Babayev deyir ki, ortalığa əsl sənət nümunəsi qoymağa çalışırlar: "Bunun üçün alternativ variantlardan istifadə edirik. Afişalarla bərabər sosial şəbəkələrdə tamaşaların tizerlərini, rolikləri reklam edirik. Əlbəttə ki, bu cür reklamlar öz təsirini göstərir. Əvvəllər 15-20 nəfər tamaşaçımız olurdusa, indi tamaşaya gələnlərin sayı xeyli artıb".

Bu il teatrda 4 tamaşanın "Nuru babanın sərgüzəştləri" (müəllif və quruluşçu rejissor İ.Hacılı), "Gəl baharım, gəl yazım" (müəllif və quruluşçu rejissor A.Babalı), "Qapıda öpüş" (müəllif və quruluşçu rejissor İ.Hacılı), "Yaşayan ölü" (müəllif K.Məmmədova, quruluşçu rejissor A.Babalı), habelə 20 Yanvar və 26 fevral Xocalı soyqırımına həsr olunmuş iki ədəbi-bədii kompozisiyanın premyerası keçirilib.

Cari ilin repertuar planına uyğun olaraq K.Məmmədovanın "Yaşayan ölü" tamaşası ilə yanaşı, hazırda teatrın səhnəsində paralel olaraq Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Q.Nəcəfzadənin "İki iyirmi üç arasında" (quruluşçu rejissor Emil Əskərov), Ç.Aytmatovun "Cəmilə" (quruluşçu rejissor İmran Ali Qurban), Ə.Haqverdiyevin "Kimdir müqəssir" vodevilinin motivləri əsasında "Müqəssir" (quruluşçu rejissor Abdulla Elşadlı), Avstriya dramaturqu Piter Turrininin "Bu da axırı" (quruluşçu rejissor Abdulla Elşadlı), Təranə Vahidin "Mən toz dənəsiyəm" (quruluşçu rejissor Emil Əskərov) əsərlərinin də məşqləri davam etdirilir.

Payız mövsümündə isə teatrın yaradıcı kollektivi repertuardan kənar rumın yazıçısı Matey Vişnekin "Bu ölkə sənin qədrini bilir" pyesinin motivləri əsasında "Telefon aparatı" (quruluşçu rejissor İntiqam Hacılı), M.Bulqakovun "Ağıldankəm Jurden", Hüseyn Cavidin "İblisin intiqamı", V.Şekspirin "Kral Lir" və F.Arrabalın "Piknik" pyesləri üzərində də işləməyi planlaşdırıblar.

Cari ilin dekabrın 6-da yubileyini qeyd etməyə hazırlaşan kollektiv üzvləri teatrın aparıcı səhnə ustaları, Xalq artistləri Qabil Quliyevin və Böyükxanım Əliyevanın, aktrisa Şahrud Mehdiyevanın səhnə fəaliyyətlərinin 50 illiklərini də qeyd etmək niyyətindədirlər.

İyun ayından isə "Heydər Əliyev İli" və Azərbaycan Peşəkar Milli Teatrının 150 illik yubileyi münasibətilə "Uçan səhnə" adlı layihəyə start veriləcək. Layihə çərçivəsində teatr truppası rayonun ucqar yaşayış məntəqələrini gəzəcək, məktəb yaşlı sakinlərlə görüşərək onların qarşısında tamaşa və eyni zamanda əyləncəli proqramlarla çıxış edəcək.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 7 iyun.- S.11.